

AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBLƏR



TƏLİM



TƏDRİS





İDMAN



LABORATORİYA

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ

AZƏRBAYCAN ALİ HƏRBİ
MƏKTƏBLƏRİ

# KURSANT
# QƏBULU QAYDALARI



## 1. ÜMUMİ MÜDDƏALAR:

Tədris dili : Azərbaycan dili
Təhsil forması : Əyani
Təhsil müddəti : 4 il
İxtisasa bölünmə : 1-ci kursdan sonra
Yaş həddi : 15 sentyabr 2011-cu ilə qədər 17 yaşı tamam olan və orta məktəbi bitirdiyi ildə 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) qəbul edilirlər.



Azərbaycan Ali Hərbi Məktəblərinə qəbul olan kursantlar təhsil müddətində pulsuz yemək, geyim forması və yataqxana ilə təmin olunur, ayda 100 manat məbləğində təqaüd alırlar.

## 2. SƏNƏDLƏRİN QƏBULU:

Azərbaycan Ali Hərbi Məktəblərinə qəbul olmaq arzusunda olan namizədlər 01.04.2011- ci il tarixindən 30.04.2011-ci il tarixinə kimi ərizə ilə (ərizədə hərbi təhsil müəssisəsinin adı göstərilməlidir) məktəb rəisinə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- tərcümeyi-hal;
- doğum haqqında şəhadətnamənin surəti (dövlət notariusu tərəfindən təsdiq olunmuş);
- şəxsiyyət vəsiqəsinin surəti (dövlət notariusu tərəfindən təsdiq olunmuş);
- orta məktəbdən xasiyyətnamə;
- orta təhsil haqqında sənədin surəti (I yarımilin qiymət cədvəli);
- 4 fotoşəkil ( baş geyimsiz 3x4 sm ölçudə);
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya onları əvəz edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri (valideyinlərdən vəfat edən varsa- ölüm haqqında şəhadətnamənin surəti);
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus faktor;
- qanın vasserman seroloji reaksiyasına və hepatit A, B, C daşıyıcılığına təyini;
- tibbi göstərişə görə qanda İİÇV və sifilisə görə seroloji reaksiyaların olmasına aid müayinə;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm, dəri-zöhrəvi və digər dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmama haqqında arayışlar;

Bundan əlavə:
Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olmaq istəyənlər üçün:

- nəcisdə helmintlərin yumurtalarının və lyambiyaların sistlərinin olmasına aid müayinə.

Şəxsiyyət vəsiqəsi (doğum haqqında şəhadətnamə), çağırışçının qeydiyyat vərəqəsi, orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

## 3. HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL (2 mərhələdə keçirilir):

### I MƏRHƏLƏDƏ

AAHM-lərə qəbul olmaq arzusunda olan namizədlər hərbi həkim komissiyasından keçməlidirlər (Naxçıvan Muxtar Respublikasında yaşayanlar üçün 20-25 iyun 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseydə, digərləri üçün - 02 may 18 iyun 2011-ci ildə Heydər Əliyev adına AAHM-də keçiriləcək).

Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlərə dövlət test imtahanlarına buraxılış vərəqələri verilir.

### II MƏRHƏLƏNİ

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası təşkil edir. Abituriyentlər I qrup üzrə:

- **riyaziyyat**;
- **fizika**;
- **kimya**;
- **Ana dili;**
- **xarici dil (ingilis, fransız, alman, rus dilləri), rus bölməsi üçün (ingilis, fransız, alman dilləri)** fənlərindən azərbaycan dilində test imtahanı verirlər.

Namizədlər AAHM-lərə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təqdim olunmuş siyahılar əsasında qəbul edilirlər.

**Məzunlara müxtəlif hərbi ixtisaslarla yanaşı ali təhsil haqqında bakalavr diplomu verilir.**

QEYD:

- Təhsil müddətində fərqlənən kursantlar aylıq məvacibdən əlavə fərdi təqaüdlərlə təmin olunurlar;
- Azərbaycan Ali Hərbi Təyyarəçilik və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəblərində oxumaq arzusunda olan kursantlarla, Heydər Əliyev adına AAHM-ə qəbul olunduqdan sonra xüsusi seçim keçirilir və təhsil almaq üçün müvafiq məktəblərə göndərilirlər;
- I kursu bitirdikdən sonra hərbi ixtisaslar üzrə bölgü keçirilir ;
- Sənədlər Bakı şəhəri, Zığ qəsəbəsi, Heydər Əliyev adına AAHM-də qəbul olunur. Əlaqə telefonu: 479-78-40;
- Naxçıvan Muxtar Respublikasında yaşayan gənclər sənədləri Heydər Əliyev adına Hərbi Liseyə təqdim edirlər. Əlaqə telefonu: 4-00-15, 4-00-16.
- İmtahanın tarixi əlavə olaraq bildiriləcəkdir;
- Əlavə məlumatlar məktəbin internet səhifəsində dərc olunacaq;
- İnternet ünvanımız. **www.aahm.edu.az**

